“DEYİMLƏRİM, DUYUMLARIM, DÜYÜNLƏRİM”

“Əgər mən musiqi alətində çala bilsəydim, o zaman mizrabı simlərə deyil, insan qəlbinə toxundurardım... ”
Seyfəddin Mənsimoğlu.

Bu yazının epiqrafına qədim Orxon Yenisey yazılarından tutmuş, Dədə Qorquddan üzü bəri, Nizamini də ehtiva edərək günümüzəcən türk düşüncəsini öz içinə alan mütəfəkkirlərin sözlərini də epiqraf gətirə bilərdim. Ancaq sözün düşüncə axarını tutmaq baxımından Seyfəddin müəllimin özünün fikir aləminə üz tutmağı daha üstün bildim. Çünki həyatın mənəvi yüksəliş pilləkəni kimsənin xidmətini inkar etmir; Seyfəddin Mənsimoğlu günümüzün mütəfəkkiridir.

Jül Renardan tutmuş avropa klassiklərinin düşüncə tərzinə istinad yenə həqiqəti inkar etmir. Görünür böyüklərin, alilərin məramı son nəticədə eyni nöqtədə birləşir; istər Şərq olsun, istər Qərb. Seyfəddin Mənsimoğlunun yuxarıda epiqraf kimi gətirilən bircə cümləsinin mahiyyəti fikir dolğunluğu, məntiq gücü məzmun əhatəliliyi ilə bu adamın müasir Azərbaycan mühitində təsadüfi bir şəxs olmadığını təsdiq edir. Bütöv bir səhifəni yazmaq üçün, bəlkə də, əlavə zəhmətə ehtiyac yoxdur. Təkcə həmin cümləni səhifənin üstünə yaz və sonra da oxucuya müraciət edərək de ki, özün zəhmət çək, düşün, nəticə çıxar. İlahi, insan nə qədər düşüncə dərinliyindən gəlməlidir ki, o, həyatın bütün mahiyyətini özündə ehtiva edən bircə cümlə ilə bu dünyaya, insanlara, yaşamağa, indiki zamanımıza uyğun desək, müharibələrə, bir sözlə, ağın və qaranın arasında gizlənmiş bütün rənglərə münasibəti gətirib bircə cümlənin içərisinə yığa bilsin.



“Əgər mən musiqi alətində çala bilsəydim...” Bəli, musiqi alətində çala bilsəydin əgər sıradan bir adamsansa, ən gözəl nəğmələr ifa edərdin. İfa elədiyin nəğmələrlə könülləri fəth edərdin. Gəzərdin dünyanı ölkə-ölkə, gəzərdin dünyanı qitə-qitə, ancaq gəzə bilməzdin dünyanı insan-insan... Demək, dünyanı insan-insan gəzməkdən ötrü onun ürək, könül dünyasının səyyahı olmalısan. Elə Seyfəddin müəllim demiş; ən möcüzəli musiqi aləti olan insan qəlbinə simsar olmalısan. Mahiyyətcə Seyfəddin müəllim konkret olaraq belə demәsə də, elə bunu deyir.

Demək, həyatı insan varlığının mahiyyətində axıracan elə dərk etməlisən ki, son nəticədə qazandığın bütün peşələrin, vərdişlərin, ixtisasların, sənətlərin son nəticəsi olaraq insan qəlbinin tellərində özünü ifadə edə bilәsən.

Seyfəddin Mənsimoğlu deyir ki, mizrabı simlərə deyil, insan qəlbinə toxundurardım. Yəni o, insan qəlbinin özünü də simli bir musiqi alətinə bənzədir. Doğrudan-doğruya günümüzəcən lap qədim zamanlardan üzü bəri “ürəyimin telləri” ifadəsi gəlib çatıb. Sənətkar üçün meydanı açmaq, meydanı yaratmaq şərt deyil.

Təfəkkür sahibi üçün kimsənin buyur, meydana çıx, səni burda gözləyirlər deməyə lüzum yoxdur. Həqiqi təfəkkür sahibi heç vaxt, heç bir kimsədən nə belə bir təklif gözləyir, nə də hazır meydan istəyir. O, öz mühitində özünü ifadə edən - özünün kimliyini göstərən sözü ilə, sənəti ilə görünmək gücündədir: “Gecə əsəbi bir kişiyə, gündüz mələk kimi qadına bənzər”. Hörmətli Jül Renar, əzizim, Tolstoy, sevimlim Asif ata... özünüz deyin, bəlkə bu ifadənin - hikmətin hansısa bir çatışmayan tərəfi var. Görün nə qədər dolğun və dəqiqdir. İnanıram ki, ayrı-ayrı zamanlarda bu bircə cümlənin içərisinə yığılmış enerjini hər kəs öz düşüncəsinə uyğun yozmaq imkanı qazanacaq. Əslində, cəmiyyəti düşüncə baxımından hərəkətə gətirmək üçün fikir vulkanları əsas təkan mənbəyidir. Və elə bu cümlənin özü də əsil fikir vulkanıdır. Gecənin əsəbi bir kişiyə bənzədilməsi, gündüzün mələk kimi qadına oxşarlığı ən azı ifadə baxımından son dərəcə orjinaldır. Ancaq bu hikmətin dəyəri təkcə ifadə baxımından orjinallığında deyil, nə qədər istəsən düşüncə meydanı var. İndiki zamana uyğun bir şərhi də biz verə bilərik: “Gecədir, qaranlıq hər tərəfə hakimdir, qaranlığın özü vahimə, qorxu timsalıdır. Hər an ölüm gələ bilər. Ancaq bilmirsən ki, hardan gəlir. Ölümlü, qara qorxulu gecə keçib gedir. Hər kəs öz iradəsinə uyğun bu gecəni səhər eləyir. Öləndə var, qalanda var. Ancaq səhər açılır, gözlərinin gördüyü mənzərə sənə həyat haqqında sevgili duyğular diktə edir. Sən həyatı gecəki bezdiyin, qəbul elədiyin ölümdən fərqli olaraq yaşamaq istəyirsən, dünyanı təzədən görmək istəyirsən. Necədir, əziz dostum, az qala varlığımızı dağıdan və təzədən söküb quran düşüncələrlə üz-üzəyik. Ancaq bu düşüncələrin dəyəri orasındadır ki, biz varlığımızı ona görə təzədən sökүb, qurmağa hazırıq ki, dünyamızla taraz ola bilək. Bu Seyfəddin Mənsimoğlu adlı kişi də elə bu tarazlığı arzulayır.

Seyfəddin Mənsimoğlunun “Deyimlərim, duyumlarım, düyünlərim” kitabının səhifələrinə hopmuş hər hansı bir düşüncə mətninin üzərində dayanmağa dəyər. Axı, necə bu sözün üstündən sükutla keçə bilərsən: “Cavanlıqda ayağımı əyri qoyurdum düz düşürdü. İndi isə düz qoyuram əyri düşür”. Söz varlığına yol alır. Daxili aləminə od qoyur və səni məcbur edir ki, həyatınının əzəlindən gününəcən olan məqamları gözlərinin önündən keçirəsən. Bu da insanın özünü dərkə xidmət edir. Səni məcbur edir ki, həyatın haqqında düşünəsən, ən azı heç olmasa bundan sonrakı gününü zamanını daha aydın görə biləsən. Bu kişinin yeni, milli mentalitet baxımından sağlam düşüncə mənbəyi olaraq, varlığından süzülüb gələn səsi necə sükutla dinləmək olar: “Neçə illərdi ki, evdən çıxıb eyni yolla işə gedirəm. Mənə elə gəlir ki, həmin yolu o, vaxt getdiyim sürətlə gedirəm. Ancaq, arxadan gələnlərin hamısı gəlib məni keçir”. Bu inkara-inkardır. Yeninin özündən əvvəlki üzərində qələbəsidir. Bu hərəkətdir, bu yeni enerjinin gücüdür, bu əslində həyatın inkişafıdır və nəhayət bu düşüncələr bizə təlqin edir ki, özünüzdən sonra gələn nəsillərin qabağını kəsməyin, onsuz da buna gücünüz çatmayacaq. Necədir əziz oxucu sarsıla bilirsənmi? Əgər, Seyfəddin Mənsimoğlunun düşüncələri qabağında sarsılmırsansa, demək, səndə Aristotel düsturu öz gücünü göstərə bilmir. Çünki, Aristotel düsturu düşünə bilən qavraya bilən, insanlara kar kəsə bilir; mənəvi katarzis yalnız düşünə bilən insanlarda təzahür edə bilir. Seyfəddin müəllim özü bu məqamı daha dəqiq görə bilir: “İnsanın hissə qapılması, şehli dumana bənzəyir. Şeh təbiəti necə gözəlləşdirirsə, keçirdiyi hisslər də insanı o qədər ecazkar göstərir”. Nə qədər aydın, nə qədər təmiz, nə qədər saf, nə qədər duru...

Seyfəddin müəllimin deyimlərinin hər birini ayrıca yazıya çəkmək, ümumdünya tekstində müstəviyə gətirmək, tarixi-mənəvi aspektdə təhlilə çəkmək bir kitab yazmaq demək olardı. Bu kişini az yazmağın ustadı hesab etmək olar və zənnimcə hər bir deyiminin mahiyyəti bir romanın enerjisini vermək gücündədir.

Seyfəddin Mənsimoğlu humanistdir. O, bütün varlığı ilə insan aniliyini, insan ucalığını qorumaq iddiasındadır. Ona görə də onun sözünün içində insan ucalığına bir çağırış var. O, sözünün qüdrəti ilə özü də kristallaşmış, cilalanmış az qala muzey eksponatı ola biləcək, sözü ilə parlaq işıq saçır və işığı ilə gözün görmə imkanını dağıtmır. Göz yaddaşından keçərək insanın varlığına hopur. Onun yeri gələndə təbiət və insan duyumu ilə bağlı düşüncələri ümumdünya nizamına köklənmiş gücdə özünü göstərir: “Təbiət başdan-ayağa möcüzədir. İstər canlıları, istərsə də daşı-torpağı. Bu möcüzəni görmək, duymaq və bilmək lazımdır. Kim görürsə, bilirsə, o insan duyğulu, duyumlu, bilikli və insaflı olur. Bir sözlə, başqalarından fərqli olur”. Daha insanı-insan olmağa bundan qeyri hansı tərzdə çağırmaq olar?! Demək, Seyfəddin müəllimin düşüncəsində daşın da dili var, torpağın da nitqi var. Bir sözlə, təbiət o qədər canlıdır ki, o öz üzərində gəzən insanla dilbədil danışa bilir, dərdini deyə bilir, sevincini bölüşə bilir. Əgər, təbiətin dilini bilirsənsə demək, sən böyük hərflə yazılan İNSAN olacaqsan.

Seyfəddin Mənsimoğlu filosof sənətkarıdır, ağac üzərində oyma ustasıdır, ağac üzərindəki oymalarıyla möcüzələr yaradan sənətkardır. Və artıq onun bu həqiqətini ölkəmizdə və dünyada dərk edənlər az deyil.

Seyfəddin Mənsimoğlunun “Deyimlərim... duyumlarım... düyünlərim...” kitabı göstərir ki, o həm də kifayət qədər mütəfəkkir yazıçıdır. Bu kitabın “Duyumlarım” bölümü bu qənaəti əsaslandırmaq üçün bəs edəcək gücdədir. O, elə sənətkardır ki, romanlar yazmağa kifayət qədər bəs edəcək enerjini qısa deyimlərində və real həyat hekayələrində ehtiva edə bilir. Onun maraqlı həyat hekayələrinin epiqrafı olaraq yazdığı cümlələr bəs edir ki, onun yazıçı təfəkküründə öz gücündə qavraya bilək: “Düşünürəm ki, ilahi yaratdığı qarışqadan tutmuş, filinə qədər - hər canlını öz nəzarətində saxlayır. Onları haqsız incidəni, məhv edəni gec-tez cəzalandırır. Zülm edəni heç vaxt cəzasız qoymur...” Kitabın bu bölümündə müəllifin bu epiqrafı özünün mənəvi mühitinin gücü kimi, özünü göstərir. Biz, hər səhifəni çevirdikcə həyat möcüzələri ilə rastlaşırıq.



Seyfəddin Mənsimoğlu el adamıdır, el içində böyüyüb, el anlamı bir kəndi, bir ərazini ehtiva etmir. Bu anlamın içində bütün etnosun taleyi ehtiva olunur. Və demək, Seyfəddin Mənsimoğlunun idealında cəmiyyət onun el anlamı ilə bütövləşir. Biz Seyfəddin Mənsimoğlunun mənsub olduğu etnosun timsalında bir insanın yox, bütöv etnosun zənginliyini görürük.

Seyfəddin Mənsimoğlunun “Deyimlərim... duyumlarım... düyünlərim...” kitabının üçüncü hissəsi adda ehtiva olunduğu kimi “Düyünlərim” adlanır.

Bizim Qarabağ mühitində dərdə, həm də düyün deyirlər. Görünür, düyünün açılmazlığı, dərdin çəkilməzliyi, ağırlığı ilə mütənazidir. Biri, digərini tamamlayacaq dərəcədə gücdədir.

(Davamı 6-cı səhifədə)

"DEYİMLƏRİM, DUYUMLARIM, DÜYÜNLƏRİM"

(Əvvəli 5-ci səhifədə)

"Düyünlərim"in epiqrafı kimi müəllif maraqlı mətn təqdim edir: "Bu da mənim ailəm: yoldaşım, oğlanlarım, qızım, gəlinlərim və nəvələrim. Bura mənim kiçik cənnətimdir, isti yuvamdır. Bunları mənə heç kim çox görməsin. Onsuz da dərdim az deyil. Mən hamının yuvasını isti, evini bərəkətli görmək istəyirəm". Yenə, filosof Seyfəddin müəllimi görürük, yenə dərin təfəkkür sahibi Seyfəddin müəllimi görürük. Onun düşüncə məkanında insan ali varlıqdır. Bu bölmədə təqdim olunan yazılarda müxtəlif obrazlar diqqətimizi çəkir. Əlbəttə, birinci obraz Fəxrəddin Seyfəddin oğlunun obrazıdır. Bu adam Azərbaycan müasir miniatür rəssamlığının nadir siması idi. Görkəmli sənətşünas Ziyadxan Əliyev "Fəxrəddin Seyfəddinoğlu" adlı tədqiqat əsərində onun ölməzliyini həm sənətşünaslıq baxımından, həm də öz əsərlərinin dəqiq təqdimi ilə sübut edir. Bu bölümdə bir maraqlı məktub da diqqəti cəlb edir. Məktub belə bir müraciətlə başlanır: "Hörmətli Əli Heydər Bayat bəy". Məktub Fəxrəddinin yaradıcılığı ilə bağlı nikbin notlarla bitir. Şübhəsiz, müasir miniatür sənətinin nadir siması olan Fəxrəddin Seyfəddin oğlunun sənət yolunda kimliyi hələ bir az sonra daha dəqiq araşdırılacaq. Onun miniatür düşüncə sisteminə gətirdiyi forma məzmun keyfiyyət dəyişikliyi onda daha aydın görünəcək.

Kitabın sonuncu bölümündə müəllif yazıçı Fərman Kərimzadə, rəssam Bəxtiyar haqqında düşüncələrini də düyünləri kimi ifadə edir. Kitabın sonluğuna daxil edilmiş fotoşəkillər, ağac üzərində oyma ustası kimi müəllifin sənət örnəklərinin fotoşəkilləri də düyünlərin fəlsəfi mahiyyətini tamamlayır. Axı, bu sənət örnəkləri hələ kifayət qədər öz dəyərini, qiymətini almayıb. Əgər belədirsə, onda bütün bunlar sənətkar üçün düyün deyil, bəs nədir?

Bütün bunları buraya qədər qeyd etdiklərimi yazdıqlarımı başqalarıda yaza bilər, amma bilmirəm kim hansı yanğı ilə, hansı duyğu ilə yaza bilər...

Ancaq, mən Seyfəddin Mənsimoğlunu sadəcə seyirçi bir nəzərlə yazdım. Ancaq, yazı zamanı köçürənin sehirçi sözünüdə gördüm. İfadəni düzəltdim. Ancaq, yaddaşımda bu texniki səhvin həm də qanuna uyğun olduğunu dərk etdim. Seyfəddin Mənsimoğlunu həqiqətən sehirçi olduğunu bir daha anladım.

... Dünyada elə insanlar var ki, onlar istedadlarının bütün möcüzələrini göstərirlər. İnsanlara elə gəlir ki, bu qeyri-adilər bütün möcüzələrini göstəriblər. Daha onların timsalında qeyri-adi bir möcüzə axtarmağa lüzum yoxdur.

Seyfəddin ustadın qızının - dünyadan vaxtsız köçmüş, bəxtsiz, sonsuz iztirablarla ancaq, on doqquz il yaşaya bilmiş qızının baş daşının üzərindəki sənətkarlığını görəndə heyrətə gəldim. İndi həmin möcüzəli sənətkarlığa işlənmiş baş-daşı işğaldan sonra tapılacaq, tapılmayacaq... Mən bunu deyə bilmərəm. Hər halda həmin baş daşının foto şəkili sənətkarın özündə qalır. Sən demə sevgi, övlad taleyinə münasibət insanı necə möcüzələr yaratmağa vadar edə bilərmiş.

...Bəli, həmin məzar daşının foto şəkili bu gün də Seyfəddin müəllimin əlində qalır; dünya daş üzərində oymanın möcüzəsi kimi.

...Seyfəddin Mənsimoğlu yaş sarıdan səksəni keçib. Yaradıcılıq, təfəkkür cismani güc baxımından deyərdim ki, əllini təzəcə adlayıb.

Adına, yaradıcılığına uyğun olmayan çəkisinə qədər tutmayan təltifləri də var.

Dünyanın nadir adamını görmək, bizim üçün bu qədər çətindirmi?!

Başqalarını deyə bilmərəm, Seyfəddin müəllimi mən vicdanımın gücü qədərində görə bilməyə çalışdım.

...Onsuzda dünyanın yaddaşı kimlərinsə istəyi ilə hesablaşmır...

Əli Rza XƏLƏFLİ